# Azərbaycan – ABŞ: Regional sülhə və iqtisadi əməkdaşlığa yeni imkanlar yaranır

**Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır.**

**Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Cozef Baydenə 22 mart 2022-ci il tarixli məktubundan**

***Bu il Birləşmiş Ştatlarla Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyidir. Bu ildönümünü qeyd etdiyimiz bir zamanda administrasiyam Cənubi Qafqazda demokratiya, sülh və tərəqqini dəstəkləməyə davam edəcəkdir. Biz, həmçinin ortaq təhlükəsizlik narahatlıqlarını həll etmək, regional barışığa təşviq etmək və iqtisadi əməkdaşlıq üçün yeni imkanları araşdırmaq məqsədilə Azərbaycanla birgə işləyəcəyik.***

***ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə 20 mart 2022-ci il tarixli təbrik məktubundan***



***Son zamanlar "Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu artır" həqiqətini tez-tez eşidirik. Bunu təkcə ölkəmizdəki ekspert və politoloqlar və ya dostumuz–müttəfiqimiz olan ölkələrin mütəxəssisləri deyil, dünyanın əksər ölkələrindəki obyektiv düşüncəli siyasi xadimlərin hamısı etiraf edir. Bəs cəmi otuz illik müstəqillik tarixinə malik olan bir ölkənin belə sürətlə beynəlxalq nüfuz qazanmasının səbəbləri nədir?***

Əvvələ, onu xatırladaq ki, Azərbaycanın indiki müstəqil dövlətinin yaşı az olsa da, bizim uzun əsrlərin yaddaşına yazılmış dövlətçilik tariximiz vardır. Yeni ermənilər kimi ordan-burdan yığışıb özgə torpaqlarında dövlət yaratmamışıq. Bu isə indiki Azərbaycanın mükəmməl siyasətə, diplomatiyaya, parlamentarizmə, demokratiyaya, sədaqətli əməkdaşlıq təcrübəsinə malik olduğunun göstəricisidir. Bu faktları beynəlxalq aləmdə hamının bilməsinin və yüksək qiymətləndirməsinin nəticəsidir ki, ölkəmizin nüfuzu durmadan artır.

İkincisi, Azərbaycan heç bir ölkənin daxili işlərinə qarışmır və heç kəsə ərazi iddiası yoxdur. Üstəlik, rəsmi Bakı beynəlxalq aləmdəki müharibə və münaqişələrin sülh yolu ilə həll edilməsinə daim öz töhfələrini vermişdir. Bundan başqa, dünyanın hansı guşəsində baş verməsindən asılı olmayaraq, bütün antiterror aksiyalarda daim haqqın, ədalətin tərəfində olmuşuq. Mövcud olduğu bütün dövrdə xəyanət, satqınlıq, terror, təxribat, separatçılıq və istənilən dövlətə düşmənçilik edən Ermənistan isə regionun bütün ölkələrinə qarşı ərazi iddialarından əl çəkə bilmir. Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artmasının əsas səbəblərindən biri də məhz Bakı ilə İrəvanın yeritdiyi xarici siyasətdəki bu fərqlərdir.

Üçüncüsü, müstəqilliyin ilk illərində ölkəmizə "rəhbərlik edənlərin" sərhədləri bağlayaraq iqtisadiyyatı inkişaf etdirmək xülyasından fərqli olaraq, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev ölkəmizin qapılarını bizə dost əli uzadan hər kəs üçün açıq elan etmiş, təbii sərvətlərimizdən xalqımızla yanaşı, dost və tərəfdaş ölkələrin də bəhrələnməsinə imkan yaratmışlar. Həmin siyasi uzaqgörənliyi yüksək qiymətləndirən dünya liderləri dövlət başçımıza göndərilən bütün məktublarda bu məqamı xüsusilə qabardırlar.

Konkret olaraq yada sala bilərik ki, 1993-cü ilin payızından sonra Ağ evdən Azərbaycan Prezidentinin ünvanına gələn bütün məktublarda ölkəmizin enerji resurslarından dost və tərəfdaşlarımızın da bəhrələnməsi daim yüksək qiymətləndirilib. ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə milli bayramımız günü göndərdiyi növbəti məktub isə sözün həqiqi mənasında, xalqımız tərəfindən məmnunluqla qarşılandı. Çünki söhbət Novruz bayramından gedirdi və həqiqəti ifadə edirdi.

"Hörmətli cənab Prezident, Sizə və Azərbaycan xalqına sevincli və firavan Novruz bayramı arzulayıram. Bu yenilənmə zamanı əməkdaşlığımızı və sülhə sadiqliyimizi yenidən təsdiqləmək üçün bir imkandır" cümlələri ilə başlanan məktubda bu il Birləşmiş Ştatlarla Azərbaycan arasında diplomatik münasibətlərin 30 illinin tamam olduğu da xatırladılır: " Bu ildönümünü qeyd etdiyimiz bir zamanda administrasiyam Cənubi Qafqazda demokratiya, sülh və tərəqqini dəstəkləməyə davam edəcəkdir. Biz, həmçinin ortaq təhlükəsizlik narahatlıqlarını həll etmək, regional barışığa təşviq etmək və iqtisadi əməkdaşlıq üçün yeni imkanları araşdırmaq məqsədilə Azərbaycanla birgə işləyəcəyik".

Xatırladaq ki, 30 il ərzində Azərbaycan və ABŞ arasındakı münasibətlər qarşılıqlı hörmət və əməkdaşlıq prinsipləri çərçivəsində inkişaf yolu keçib. Konkret bir faktı yada salaq. 1994-cü ildə imzalanan tarixi "Əsrin müqaviləsi"ndən sonra ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələr dərinləşib. 44 günlük müharibədən sonra yaranmış postmünaqişə mərhələsində azad olunmuş ərazilərdə böyük layihələrin icrasında ABŞ şirkətlərinin fəal iştiraka göstərdiyi maraq da xüsusilə qabardılmalı məqamlardandır.

Başqa bir mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan sülhməramlıları Əfqanıstanda təhlükəsizliyin təmin olunmasında iştirak edərək, beynəlxalq ədalətin bərpasına töhfə veriblər. Ağ evdə dəfələrlə qeyd edilib ki, Azərbaycan Əfqanıstana ilk sülhməramlılar göndərən və öz sülhməramlılarını oradan sonuncu çıxaran ölkələrdən biri olmuşdur.

Dövlət başçımızın Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Cozef Baydenə 22 mart 2022-ci il tarixli məktubunda da Bakı – Vaşinqton əməkdaşlığının çoxvektorluluğundan söz açılmışdır: "Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən otuz ildə ölkələrimiz arasında uğurlu ikitərəfli münasibətlər formalaşmışdır. Bu dövr ərzində çoxşaxəli səmərəli fəaliyyətimiz qarşılıqlı investisiya yatırımı, ölkənizi təmsil edən yüzlərlə şirkətin Azərbaycanın iqtisadi həyatında fəal iştirakı ilə müşayiət olunmuşdur".

Xüsusilə vurğulanır ki, Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir: "Bu baxımdan enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəqli, irimiqyaslı transmilli enerji layihələrinin reallaşması sahəsində ABŞ-ın göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndiririk".

Bir məsələni xüsusilə xatırladaq ki, dövlət başçımız İkinci Qarabağ müharibəsindən keçən il yarımda elə bir gün olmayıb ki, regionda yaranmış yeni reallıqların dünya ictimaiyyətinin nəzərinə çatdırılması istiqamətində addımlar atmasın. Haqqında söz açdığımız məktubda da cənab Baydenin nəzərinə xüsusi məqamlar çatdırılır: " Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ilə Ermənistanın Azərbaycana qarşı otuz ilə yaxın davam edən hərbi təcavüzünə son qoyulmuş və ölkəmiz 30 ilə yaxın müddət ərzində icra edilməmiş vəziyyətdə qalmış BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etmişdir. Biz sülhün tərəfdarı olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Gələcəyə köklənmiş baxış əsasında ABŞ-ın Azərbaycanın sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq".

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***